**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədrinin “ 24 ”dekabr 2014-cü il tarixli 358K № li əmri ilə təsdiq edilmişdir**

# VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Dövlət orqanının adı:** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **Şöbənin adı:** | İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi |
| **Sektorun adı:** | Test tapşırıqları bazasının yaradılması və ekspertizası sektoru |
| **Vəzifənin adı:** | böyük məsləhətçi |
| **Vəzifə maaşı:** | 520 manat |
| **Vəzifə təsnifatı:** | inzibati vəzifələrin 5-ci təsnifatı |
| **İş yerinin ünvanı:** | Bakı şəhəri, Nərimanov rayonu, K.Rəhimov küçəsi, 874-cü məhəllə |
| **Bilavasitə tabe olduğu şəxs:** | sektor müdiri |
| **Qulluq funksiyaları:** | – imtahanların təşkili və keçirilməsi ilə əlaqədar təşkilati tədbirlərin həyata keçirilməsində iştirak<br>– kuratoru olduğu bölmələr üzrə elmi-metodiki seminar-iclasların təşkili, test tapşırıqlarının hazırlanması və ekspertizası üzrə mütəxəssislərin seminarlarda iştirakının təmin olunması, seminar iclasların yekun protokollarının hazırlanması;<br>– test bankının zənginləşdirilməsi məqsədilə yeni tipli test tapşırıqlarının hazırlanması ilə bağlı təkliflərin verilməsi;<br>– kuratoru olduğu bölmələr üzrə Test Proqramının hazırlanması, onlara əlavə və düzəlişlərin edilməsi;<br>– kuratoru olduğu bölmələr üzrə test tapşırıqlarını hazırlayan ekspertlər tərəfindən təqdim edilən test tapşırıqlarının onlar üçün müəyyən edilmiş tələblərə uyğunlaşdırılması;<br>– kuratoru olduğu bölmələr üzrə test tapşırıqlarının ekspertizası işinin təşkili və ekspertizaların yekunlarına dair aktların tərtib edilməsi;<br>– test tapşırıqlarının ekspertizası nəticəsində onlara edilmiş müvafiq düzəlişlərin fayllara daxil edilməsi;<br>– kuratoru olduğu bölmələr üzrə mövcud test bankının təftiş edilməsi və ona müvafiq düzəlişlərin edilməsində iştirak;<br>– səlahiyyətləri çərçivəsində daxil olan ərizə, təklif və şikayətlərin araşdırılması və cavablandırılması;<br>– vəzifəsi üzrə rəhbərlik tərəfindən verilən əlavə tapşırıqların yerinə yetirilməsi və s. |
| **Təhsil və ixtisas tələbləri:** | ali təhsil |
| **Peşə-ixtisas biliklərinə dair tələblər** | MS Windows 7, MS Office 2007 (Word, Excell, Access, PowerPoint), İnternet və s. (orta-yüksək səviyyədə); testologiya sahəsində nəzəri-praktiki biliklər (orta səviyyədə) |
| **Staja dair tələb:** | azı 1 il iş stajı |
| **Xarici dil bilikləri:** | rus dili (orta səviyyədə), ingilis dili (orta səviyyədə) |
| **Təşkilatçılıq səriştəsi:** | orta səviyyədə |
| **Problemi həll etmək səriştəsi:** | orta səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | orta səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | orta səviyyədə |

**Qeyd:** “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən bu vəzifə müsabiqə və ya müsahibə yolu ilə tutulur.